# BMT-nin KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ

**A.ƏFƏNDİYEVA**
*Bakı Dövlət Universiteti*
*eaysu@mys.gov.az*

BMT-də keçirilən geniş tədbirlər haqqında dünya informasiya vasitələri və xidmətləri üçün birbaşa televiziya və radio yenilikləri verilməsi, radio, televiziya və video proqramları hazırlanması, mətbuatın və jurnalistlərin akkreditə edilməsi kimi məsələlərlə BMT İctimai İnformasiya Departamentinin (BMTİİD) «Xəbərlər və KİV» şöbəsi məşğul olur. Medianın müxtəlif ehtiyaclarını ödəmək üçün BMTİİD mətbuat komplektlərini və bəkqraund[1] vərəqələrini, üzv dövlətlərin fəaliyyətini əks etdirən şəkilləri, televiziya və radio verilişlərində istifadə olunmuş elektron versiyaları və başqa əyani vəsaitləri müxbirlərin istifadəsinə verir. Hər il BMTİİD ingilis dilində təxminən 3000-dən, fransız dilində isə 1500-dən artıq xüsusi buraxılışlar istehsal edir. Baş qərargahda hazırlanan buraxılışlar BMT-nin Cenevrə və Vyanadakı ofislərində yenidən buraxılır; Avropa mərkəzlərindən və BMT agentliklərindən olan buraxılışlar Nyu-Yorkda təkrar çap olunub yayılır.

**BMTİİD-in radioyayım xidməti.** 1946-cı ildə BMT İİD yaradılarkən dünyadakı radio qəbuledicilərin miqdarı milyonlarla ölçüldüyü halda, hazırda bu rəqəm təxminən 1,5 milyarda bərabərdir. Bu sihazların sahibləri başqa stansiyalarla yanaşı, BMT-nin yaydığı verilişlərə də həvəslə qulaq asırlar. Hazırda dünyanın bu ən populyar və nüfuzlu beynəlxalq təşkilatının radio verilişləri 25-dən çox dildə (Bir çox Afrika ölkələsinin dili, ərəb, benqali, Çin, ingilis, fransız, yunan, qədim yəhudi, hind, İndoneziya, yapon, linqala, Filippin, portuqal, rus, serb-horvat, somali, ispan, türk, urdu, tsvana və sairə) yayımlanır, bütövlükdə 167 ölkəyə və etnik əraziyə xidmət edir. BMT radio yayımının öz şəxsi yaradıcı heyəti var. Bu heyət ildə üst-üstə 3 dəqiqədən 30 dəqiqəyə qədər davam edən 2000 saatlıq proqram hazırlayır. Həftədə bir dəfə nisbətən irihəcmli (7-15 dəqiqəlik) «Xəbərlər buraxılışı» (Baş Məclisin sessiyaları müddətində gündəlik olur) qısa dalğalı ötürücülərlə Karib dənizini, Afrikanı, Asiyanı və Sakit Okeanı keçərək dünyanın, demək olar, bütün regionlarına çatdırılır.

BMT Radiosundakı başlıca yeniliklərdən biri fransız, portuqal və ispan dillərində olan 3-5 dəqiqəlik yeniliklərin telefon xətləri vasitəsilə müvafiq radio stansiyalarına ötürülməsi və BMT rəsmilərinin həmin stansiyalarla birbaşa telefon söhbətinə qoşulmasıdır. Son bir neçə ildə təxminən 5000-ə yaxın bu cür telefon rabitəsi qeydə alınıb.

[1] Bəkqraund (ingilis dilindəki «Background» - fon, arxa plan sözündəndir) icmal-referat və ya təhlil xarakterli köməkçi materialdır. Məsələnin mahiyyətinin açılmasına xidmət edir, siyasi qərarların qəbulu prosesində, yaxud təbliğati çıxışlar hazırlanması məqsədilə istifadə olunur.

BMT radio stansiyası bu təşkilatın daxilində və ondan kənarda baş verən hadisələr, aparteidə qarşı və özünə inam hisslərini dəstəkləyən ingilis dilində gündə 15 dəqiqəlik diskussiya verilişi hazırlayıb yayır. Bu proqramlar Afrika dillərinə, tsvana, zulu və s. dillərə çevrilərək kaset və xüsusi ötürücülər vasitəsilə Afrikaya və ona qonşu ölkələrə göndərilir.

BMT Radiosunda müxbirlərin rahatlığı üçün BMT İİD tərəfindən yazılmış BMT xəbərlərini verən yardımçı radio müxbirləri, səs mühəndisləri və texnikləri tərəfindən qurulmuş studiya, redaktə, eləcə də digər əməliyyatları yerinə yetirən laboratoriya və fonoteka fəaliyyət göstərir. Bunların xidmətindən ildə 3000 müxbir və başqa şəxslər, o cümlədən qeyri-hökumət təşkilatı istifadə edir. Fonotekada BMT-nin rəsmi iclaslarının, mühüm mətbuat konfranslarının materialları, dövlət başçılarının və digər rəsmi şəxslərin çıxışları, seminarlara, brifinqlərə, hətta BMT-nin 1945-ci ildə San-Fransiskoda keçirilmiş təsis konfransına aid audio materiallar saxlanılır (3, 11-14).

**BMT-nin televiziya yayımları.** Radio nə qədər populyar olsa da, müasir dövrdə televiziya ilə rəqabətə girə biləcək başqa informasiya vasitəsi yoxdur. Buna görə də BMT öz fəaliyyəti barədə informasiyanın TV vasitəsilə yayılmasına xüsusi önəm verir.

Faktiki olaraq Baş Məclisin, Təhlükəsizlik Şurasının bütün iclaslarını, Baş Qərargahdakı əsas hadisələri və BMT-nin müxtəlif ölkələrdə keçirilən konfranslarını BMT televiziyası lentə alır. BMT-nin TV-xəbərlər xidməti Təhlükəsizlik Şurasının ildə 60, Baş Məclisin isə 200-dən çox iclasını, bundan əlavə, BMT-nin digər qurumlarının təxminən 50 iclasını işıqlandırır.

Dünya telemediasında istifadə olunan, Baş Qərargahın fəaliyyətini əhatə edən videomaterialları da BMT televiziyası hazırlayır. Bundan əlavə, BMT televiziyası müxbirlərin sərəncamına çəkiliş kameraları və telesuflyorlar, videomontaj və dublyaj vasitələri, hər cür avadanlıqla təchiz olunmuş studiyalar da verir. BMT-də keçirilən iclasları lentə almağı arzulayan TV müxbirləri BMT-nin çəkiliş qruplarının xidmətindən istifadə etmək üçün BMTİİD-lə saziş bağlaya bilərlər. Bu xidmətlərin əvəzi qonorarla ödənir.

BMT-nin xidmət bürosu vasitəsilə TV stansiyaları üçün peyk vasitəsilə ildə yüzdən çox veriliş yayılır və bir çox ölkələr bu yolla öz televiziya proqramlarını zənginləşdirmək arzusunda olduqlarını bildirirlər. BMTİİD müxtəlif şəbəkələrə və geniş beynəlxalq xəbər sindikatorlarına kasetlərdə və film şəklində ildə təxminən 1000 ədəd xəbər paketi göndərir.

BMTİİD-in «Dünya xronikası» adlı televiziya proqramında BMT-nin əsas simaları, məsələn, Baş Katib və ya BMT agentliklərinin başçıları ilə lentə alınmış yarımsaatlıq həftəlik müsahibə verilir və onun lent yazısını BMT-də akkreditə olunmuş dörd jurnalist birliyi lazımi ünvanlara çatdırır. Ən çox sifariş dünya televiziya jurnalistlərindən daxil olur: BMTİİD-in məlumatına görə, onun hazırladığı televiziya verilişlərinin səmərəsi ildə təxminən 20 faiz artır və onun gələcəkdə daha sürətlə yüksələcəyi gözlənilir (3, 15-15-16).

**BMTİİD-in film və videoçəkiliş xidməti.** BMTİİD-in film və videoçəkiliş bölməsi təşkilatın yarandığı günlərdən yüksək rekordlar əldə etmiş, hələ 1948-si ildə uşaq hüquqlarının reabilitasiyası barədə çəkilmiş filmə görə «Oskar» mükafatına layiq görülmüşdü. BMTİİD-in çəkdiyi başqa bir filmə digər yüksək qiymət 1979-cu ildə verilmişdir. Həmin il o, dünya ictimaiyyətində tərksilah arzusunun oyanmasına həsr olunmuş «Bum» adlı qısa animasiya filminə görə Kann festivalının mükafatını

almışdı. Filmin rejissoru çex animatoru Bretislav Pojar idi. Oskar naminasiyasına layiq görülmüş başqa bir lent isə **«Bu, həmin dünyadır»** adlı 20 dəqiqəlik film idi. Bu mükafata BMT 1981-ci ildə layiq görülmüşdür. Həmin il Cənub-Şərqi Asiya qaçqınlarının ağır vəziyyətindən bəhs edən **«Müharibə qeydləri»** adlı film də Amerika Festivalında «Mavi Lent» mükafatına layiq görülmüşdü. Cənubi Amerikanın mədəniyyət irsindən bəhs edən **«Xəzinə daxilində»** filmi isə Moskvada keçirilmiş festivalda xüsusi mükafata layiq görülmüşdü.

Hazırda film və videoçəkiliş xidməti müxtəlif beynəlxalq problemlərin həllinə kömək göstərmək üçün ildə 10-dan çox orijinal film istehsal edir. Bu işi yüksək səviyyədə görmək üçün BMT-nin film çəkilişi ilə məşğul olan heyəti ildə təxminən 20 müxtəlif ölkəyə yaradıcılıq ezamiyyətinə gedir. Bu filmləri əldə etmək üçün BMTİİD-in İnformasiya Mərkəzlərinə, BMT-nin İnkişaf Proqramlarının ofislərinə və 90-dan çox ölkədə yerləşən çoxsaylı filmotekalara müraciət etmək olar.

1979-1980-ci illərdə BMTİİD **«Kiçik planet üçün günün xülasəsi»** adlı filmlə bu sahədə yeni bir mərhələyə qədəm qoymuş oldu. Kanada Beynəlxalq İnkişaf Agentliyi ilə ilə birlikdə o, Şimal-Cənub ölkələrinin nəşrlərini Şimal regionunun nöqteyi-nəzərindən tədqiq etmək məqsədilə sənayecə inkişaf etmiş 10 ölkənin milli yayım şirkətlərini konsorsiuma qoşulmağa dəvət etdi. Konsorsiumun hər bir üzvü digər seriyaların yayım hüququnu əldə etmək üçün öz gəliri hesabına birsaatlıq film istehsal etmişdi. İnkişaf etmiş ölkələrdən olan filmmeykerlər Cənub ölkələrinin mənafeyi baxımından Şimal-Cənub nəşrlərini tədqiq etmək məqsədilə **«Kiçik planet üçün günün xülasəsi - Mərhələ 2»** filmini istehsal etmişdilər.

1986-cı ildə Beynəlxalq Sülh İlində tərki-silah mövzusunda üçüncü «Xülasə» planlaşdırılırdı. **«Xülasə»** konsepsiyasının müvəffəqiyyəti sayəsində qadınların hazırladıqları digər yeni seriyaları - BMTİİD təsis etmiş, bu işə 12 qadın televiziya prodüseri cəlb olunmuş və film çəkməklə yanaşı, burada dünya informasiya buraxılışları və onların qadınlar tərəfindən necə qəbul edilməsi məsələsi də müzakirə edilmişdi (3, 19-21).

**BMTİİD-in dövri nəşrləri**. İİD-in nəşriyyat xidmət sahəsi diplomatlar, hüquqşünaslar, jurnalistlər, qeyri-hökumət təşkilatlarının nümayəndələri, alimlər, müəllimlər və məktəbli uşaqlar üçün 1946-cı ildən başlayaraq hər il 1500 səhifəlik **«BMT-nin illik kitabı»** adlanan xüsusi nəşrlər hazırlayır. Burada BMT-nin rəsmi tarixi, onun ayrı-ayrı təşkilatlarının, çoxsaylı agentliklərinin fəaliyyəti və hesabatı, birləşmiş millətlərin ümumdynya təşkilatının rəngarəng əməliyyatlarında iştirak edən şəxslər haqqında geniş məlumat və digər faktlar əksini tapır. Bundan əlavə, BMT İİD 70 dildə BMT-nin sənədlərini və Ümumdünya İnsan Haqları Bəyannaməsi kimi vacib tarixi sənədlər nəşr edib yayır. Bu kitabdan dünya ölkələrinin hökumət idarələrində və universitet kitabxanalarında məlumat qaynağı kimi geniş istifadə olunur.

BMT-nin fəaliyyəti və maraqları barədə birbaşa məlumatlar əvvəl 5 (ərəb, ingilis, fransız, rus və ispan), sonralar isə 6 (Çin dilində nəşr əlavə olunmaqla) dildə çıxan, ildə 11 nömrəsi nəşr olunan **«BMT xronikası»** adlı bülletendə işıq üzü görür. «Xronika» BMT-nin əsas orqanlarının bütün sessiyalarının materiallarını özündə əks etdirir. Bülletenin **«38-ci mərtəbə»** adlanan bölməsində Baş Katibin ən aktual beynəlxalq məsələlərə, müxtəlif məclislərdə müzakirə obyekti olan vacib mövzulara münasibəti, **«Perspektiv»** bölməsində isə silahlənmanın dünyaya, elmə və texnologiyaya göstərdiyi neqativ təsirdən bəhs edən dərin təhlili materiallar verilir.

İkinci dövri nəşr olan **«Məqsədimiz ədalətdir»** ildə 2 dəfə buraxılır. Burada söhbət ən çox dünyanın BMT-yə intensiv münasibətindən, irqi ayrı-seçkiliyə, müstəmləkəçilik siyasətinə və aparteidə qarşı mübarizənin vacibliyindən gedir.

BMT-nin necə idarə olunması, onun maliyyə məsələləri və şəxsi heyət siyasəti tez-tez müxtəlif dairələrdə suallar doğurur. Bu suallara daha dolğun cavab vermək üçün **«Obraz və Reallıq»** adlı kitabça buraxılır.

500 səhifəlik **«Hamının BMT-si»** soraq kitabında və **«BMT: əsas faktlar»** adlı kitabçada BMT-nin quruluşu və fəaliyyəti ətraflı təsvir olunur. **«Sizin BMT»** adlı şəkilli lüğət qonaqlara hədiyyə kimi təqdim olunur. Digər kitab və kitabçalar inkişaf, müstəmləkəçiliyin ləğvi, tərkisilah, insan hüquqları, dəniz qanunu və aclıq problemi kimi mövzulara həsr olunur.

BMT-nin daha da populyarlaşmasını mümkün qədər genişləndirmək üçün İİD xarici naşirlərlə sazişlər bağlayır (3, 27-29).

**İnkişaf xarakterli informasiya fəaliyyətləri**. 1962-ci ildə Baş Məclis BMT-dən «az inkişaf etmiş ölkələrdə milli informasiya vasitələrinin gücləndirilməsinə və inkişafına» yardımçı olmağı xahiş etdi; 1976-cı ildə bu sahədə aparılan məqsədyönlü işlərin – həmin ölkələrdə kütləvi kommunikasiya və milli informasiya sisteminin qurulmasında və təkmilləşdirilməsində xeyli irəliləyiş olduğunu, müvafiq əməkdaşlığın səmərəli olduğunu qeyd etdi. 5 ildən sonra, 1981-ci ildə Baş Məclis yenidən təsdiq etdi ki, «yeni dünya informasiya və kommunikasiya qanununun yaradılması yeni beynəlxalq iqtisadi qanunu birləşdirir və beynəlxalq inkişaf prosesində birləşdirici rol oynayır». Bundan sonra Baş məclis yeni beynəlxalq iqtisadi qanunu yaratmaq üçün BMTİİD-i öz səylərini əsirgəməməyə çağırmışdı.

Baş Məclisin bu çağırışı ilə əlaqədar olaraq BMTİİD son bir neçə il ərzində geniş çeşiddə inkişaf xarakterli fəaliyyətlər və xidmətlər həyata keçirir. Bunlar aşağıdakılardır:

**«İnkişaf Forumu»** - 1972-ci ildən BMTİİD-in iqtisadi və sosial informasiya bölməsi, 1980-ci ildən isə BMT Universiteti ilə birgə nəşr olunan qəzetdir. O, iqtisadi və sosial inkişaf mövzusunun işıqlandırılması üzrə ixtisaslaşmışır. İngilis, fransız və ispan dillərində ildə 10 nömrəsi çıxır. BMT-nin dünyanın iqtisadi inkişaf sahəsindəki fəaliyyətini, bu sahədə geridə qalmış ölkələrə göstərilən yardımı və s. təsvir edir və dünyada iqtisadi, sosial inkişafla bağlı meydana gələn problemlərin, mübahisələrin şərhini verir. Onun ayda 2 dəfə ingiliscə çıxan «Biznes» adlı əlavəsi regional inkişaf banklarından, BMT-nin İnkişaf Proqramından, Dünya Bankının maliyyələşmiş beynəlxalq inkişaf layihələrinin gerçəkləşdirilməsi sahəsində fəaliyyət göstərən biznesmenlərdən, məsləhətçilərdən, müqavilə bağlayan tərəflərdən əldə olunmuş və redaktə edilmiş materiallar dərc edir.

**«Dünya qəzetinin əlavəsi»**ndə BMTİİD-də və BMT-nin təhsil, elm, mədəniyyət təşkilatlarında planlaşdırılmış, inkişaf problemləri ilə bağlı olan seçmə qəzet məqalələri toplanır. Bu prosesdə iştirak edən (məqalələri seçilib dərc olunan) qəzetlərin xüsusi dəstəyi ilə ildə 3 və ya 4 dəfə daycest xarakterli nəşr hazırlanır. Bu layihədə iştirak edən qəzetlər həm Şimal, həm də Cənub ölkələrini təmsil edir.

**«İİD-nin Xüsusi Xidməti»** BMT-nin beynəlxalq iqtisadi əməkdaşlıq və inkişaf sahəsindəki fəaliyyətinin müxtəlif tərəflərini araşdıran, inkişaf etmiş ölkələrin qəzetlərinə təklif olunan, müntəzəm dərc edilən məqalələr toplusudur. Onun xidmətindən təxminən 200 qəzet və çoxlu qeyri-hökumət təşkilatı bəhrələnir.

Toplunun materialları, əsasən, BMT-nin müxtəlif ölkələrdə keçirdiyi sessiyaların sənədlərindən ibarət olur (3, 31-33).

**Dəyirmi Masalar və jurnalistlərin görüşləri**. Dəyirmi Masalar ildə bir dəfə Baş Qərargahda, qalan vaxtlarda isə müxtəlif ölkələrin paytaxtlarında keçirilir. Onların davametmə müddəti bir neçə gündən bir həftəyə qədərdir. Məsələn son 25 ildə Dəyirmi Masalar Əddis-Əbəbə, Atlanta, Banqkok, Boston, Budapeşt, San Dieqo, Tunis kimi onlarca şəhərdə BMT-nin Dəyirmi Masaları keçirilib.

Bir informasiya xidməti olaraq BMTİİD həmçinin bir çox əsas beynəlxalq konfranslardan əvvəl jurnalistlərin görüşlərini keçirir.

Həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrin jurnalistləri üçün layihələşdirilmiş görüşlər BMT rəsmilərindən və texniki ekspertlərdən kimlərin qarşıdan gələn konfranslarda iştirak edib-etməyəcəyini müəyyənləşdirir, konfransların inzibati işi barədə mətbuatı məlumatlandırır və onları müzakirə olunmuş mövzular ətrafında texniki bəkqraund informasiyası ilə təmin edir, jurnalistlərlə ekspertlər arasında diskussiyalar keçirir (3, 35-37).

**Təlim proqramları və emalatxanalar.** BMTİİD-də 1948-ci ildən bəri məzun tələbələrin interna proqramı mövcuddur. O vaxtdan bəri BMT İİD hər il 50 ölkədən 80 məzun tələbəni 4 həftəliyə Baş Qərargaha gətirib onlara heyət üzvləri ilə fərdi qaydada işləmək və oxuduqları universitetlərdə başladıqları layihələrin gerçəkləşdirilməsi prosesini davam etdirmək imkanı verir. Bundan əlavə, interna müddətində tələbələr Katibliyin əsas üzvlərindən göstərişlər alır, onlara diskussiyalarda və BMT-nin iclaslarında iştirak etmək üçün şərait yaradır. Son vaxtlar BMTİİD inkişaf etməkdə olan ölkələrin müxbirləri və jurnalistləri üçün Təlim Proqramı yaradıb. Baş Məclisin ənənəvi 3 aylıq sessiyası ərzində həyata keçirilən proqramın icrası zamanı gənclərdən ibarət 15-20 xəbərlər mütəxəssisini Baş Qərargaha gətirilir, onlara media texnologiyasının nailiyyətləri haqqında, həmçinin təşkilatın işi barədə məlumat verilir, müdavimlərə BMT, o cümlədən BMTİİD sisteminin digər informasiya ofislərində işləmək imkanı yaradılır(3, 39-41).

BMT nəşrlərində Azərbaycan Respublikası ilə bağlı materiallara da yer verilir. Belə ki, 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan münaqişəsinə dair qəbul etdiyi 822, 853, 874, 884 saylı qətnamələrin, BMT Baş Assambleyasının elə həmin ildə keçirilmiş 85-ci plenar iclasında “Azərbaycanda olan qaçqın və məcburi köçkünlərə fövqəladə beynəlxalq yardımın göstərilməsi haqqında” Qətnamənin (A/RES/48/114), Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1994 və 1995-ci illərdə BMT Baş Assambleyasının 49-cu (1, 16-21) və 50-ci (1, 38-39) sessiyalarında, 2000-ci ilin sentyabrında BMT-nin Minillik Zirvə Toplantısında (1, 101-102) etdiyi çıxışların, İlham Əliyevin BMT Baş Məclisinin 58-ci (2003-cü il sentyabrın 24-ü, Baş nazir kimi) və 59-cu (2004-cü il sentyabrın 24-ü, Prezident kimi) sessiyalarındakı çıxışlarının mətnləri (1, 109-111; 122-124) və ölkəmizlə bağlı bir çox digər rəsmi sənədlər BMT mediasında yer alaraq dünya ictimaiyyətinə çatdırılmışdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan bayrağı İst-River sahilində. Bakı, Heydər Əliyev İrsini Araşdırma Mərkəzi, 2009, 435 s.
2. Birləşmiş Millətlər Təşkilatı Azərbaycanda. Bakı, Press-Alyans nəşriyyatı, 2003, 60 s.

3. Əliyev Zaur. Azərbaycan Respublikasının BMT ilə əməkdaşlığı // http://zaur.azeriblog.com.
4. This is DPI. The United Nations Department of Public Information and How It Works. Published the UN, 1983, 63 p.

## СРЕДСТВА МАССОВОЙ ИНФОРМАЦИИ ООН

**А.Э.ЭФЕНДИЕВА**

**РЕЗЮМЕ**

В статье исследуются средства массовой информации (радио, телевидение, газеты, бюллетени, справочники), управляемые Департаментом общественной информации ООН. Тут рассматриваются также службы фильмов и видеосъемок, фотографий и экспонатов, такие печатные издания как «Ежегодник ООН», «Хроника ООН», «Наша цель – справедливость» и др.

В средствах массовой информации ООН неоднократно публиковались материалы об Азербайджане – резолюции, касающиеся агрессии Армении против нашей страны, выступления президентов Гейдара и Ильхама Алиевых на сессиях Генеральной Ассамблеи ООН и на других официальных мероприятиях.

## MASS-MEDIA OF UNITED NATIONS

**A.E.EFENDIYEVA**

**SUMMARY**

In this article is investigated the mass media of United Nations Department of Public Information – Services in Press, Radio, TV, Films, Video Features, Photographs and Exhibits, Publications (“The Yearbook of the United Nations”, “UN Chronicle” etc.).

In the mass media of the United Nations repeatedly have been printed materials about Azerbaijan – decisions concerning to aggression against Armenia our country, speeches of presidents of the Republic of Azerbaijan Heydar and Ilham Aliyevs's at the 49$^{th}$, 50$^{th}$, 58$^{th}$, 59$^{th}$ sessions of the UN General Assembly and in another official ceremonies.